AccessBank

# Ödəniş kartları departamentinin aparıcı mütəxəssisi

**Öhdəlikləri:**

- Bank kartlarından istifadə etməklə aparılan əməliyyatlar üzrə iddia işlərinin aparılması ilə əlaqədar Visa/MasterCard beynəlxalq ödəniş sistemləri (BÖS) ilə, BÖS iştirakçıları olan banklarla, Prosessinq Mərkəzi (PM) ilə qarşılıqlı əlaqə;
- Rüblük və aylıq hesabat formalarının doldurulması və BÖS-ə göndərilməsi;
- PM tərəfindən təqdim olunan hesablara nəzarət olunması, BÖS xidmətləri üzrə aktların tutuşdurulması;
- Sənədlərin açılması və doldurulması, müvafiq layihələrin aparılması;
- Yeni kart məhsullarının tətbiqinin iqtisadi effektivliyinin hesablanması;
- Biznes proseslərinin təhlili, proseslərin avtomatlaşdırılması üzrə tələblərin işlənib hazırlanması;
- Kart məhsulları üzrə proqram təminatı işləyib hazırlayan əməkdaşlar üçün texniki tapşırıqların işlənib hazırlanması və irəli sürülməsi;
- Ödəniş kartlarının buraxılmasını və xidmət göstərilməsini tənzimləyən normativ bank sənədlərinin müşayiət olunması.

**Tələblər:**

- Ali təhsil;
- İddia işlərinin aparılması ilə əlaqədar BÖS ilə, BÖS iştirakçıları olan banklarla və prosessinq mərkəzi ilə qarşılıqlı əlaqə təcrübəsi, hesabatların hazırlanması üzrə ən azı 2 illk iş təcrübəsi;
- Azərbaycan, rus və ingilis dillərini (BÖS ilə ünsiyyət saxlamaq uçün kafi səviyyədə) bilmək;
- Analitik təfəkkür, məqsədyönlülük, məsuliyyət, öyrənmək və yeni biliklər əldə etmək arzusu;
- Təcrübəli istifadəçi səviyyəsində şəxsi kompüteri bilmək;
- Ünsiyyətcillik və komandada işləmək bacarığı.

**Üstünlüklər:**

- Strukturlaşdırılmış sorğular dilini (SQL) bilmək;
- Makrosları yazmaq bacarığı.

Maraqlanan şəxslər öz CV formalarını cv@accessbank.az elektron poçt ünvanına göndərə bilər. Xahiş olunur CV göndərdikdə “subject” (mövzu) hissəsində müraciət etdiyiniz vakansiyanın adını qeyd edəsiniz.